


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 134 (23.045)**

***19 iyul 2018-ci il, cümə axşamı***

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 20 qəpik**


## *Rəsmi xronika*

Azərbaycan Respublikasına rəsmi səfərə gələn İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın iyulun 18-də rəsmi qarşılanma mərasimi olub.

Azərbaycan Prezidenti İlham Əliyev İtaliya Prezidenti Sercio Mattarellanı qarşılayıb.

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə təkbətək görüşü olub.

Təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın iştirakı ilə sənədlərin imzalanması mərasimi olub.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İtaliya Respublikasının Prezidenti Sercio Mattarella mətbuata bəyanatlarla çıxış ediblər.

Həmin gün Sumqayıt Kimya Sənaye Parkının ərazisində "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən polipropilen zavodunun açılış mərasimində Prezident İlham Əliyev və İtaliya Respublikasının Prezidenti Sercio Mattarella iştirak ediblər.



## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasından irəli gələn vəzifələr müzakirə olunub



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada keçirilən kollegiya iclasında komissiyanın sədri İsmayıl Qəribli məruzə edərək bildirib ki, 2018-ci ilin 6 ayı ərzində muxtar respublikada vətəndaşların dövlət qulluğuna qəbulunun mərkəzləşdirilmiş qaydada müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsi təmin olunub. Dövlət orqanlarında 294 vakant vəzifənin tutulması məqsədilə elan olunmuş müsabiqənin test imtahanında iştirak etmiş 370 namizəddən 136-sı keçid balını toplayıb. Həmin namizədlərdən 131-i müsahibə mərhələsində iştirak etmək üçün sənədlərini komissiyaya təqdim edib. Həmçinin ötənilki müsabiqənin test imtahanlarında qanunvericiliklə müəyyən edilmiş keçid balını toplayıb inzibati vəzifə üzrə sertifikat alan 17 namizəd müsahibə mərhələsinə buraxılıb.

Cari il iyunun 25-dən iyulun 3-dək keçirilən müsahibə mərhələsində iştirak edən 123 namizəddən 64-ü müvafiq keçid balını toplayaraq uğur qazanıb. Qanunvericiliyə uyğun olaraq keçid balını toplamış 56 nəfərin sənədləri təyin olunmaq üçün dövlət orqanlarına göndərilib və onların hamısı iddia etdikləri vəzifələrə təyin olunub, 8 nəfər isə ehtiyat kadrlar siyahısına salınıb.

Hesabat dövründə komissiyada 31 namizəd tərəfindən vakant aparat rəhbəri, şöbə və sektor müdirləri vəzifələrinin tutulması üçün test imtahanları keçirilib, onlardan 13 nəfəri müvəffəqiyyət qazanıb.

İsmayıl Qəribli bildirib ki, test imtahanlarında uğur qazanmış 149 nəfərə sertifikat verilib. Həmçinin müvafiq dövlət orqanlarında 16 dövlət qulluqçusu tərəfindən vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün keçirilmiş daxili müsabiqələrdə komissiyanın nümayəndəsinin iştirakı təmin edilib.

Cari ilin 7 və 22 iyun tarixlərində komissiyanın Test mərkəzində attestasiyaya cəlb olunmuş dövlət orqanlarının mətbuat və ictimaiyyətlə əlaqələr üzrə məsul əməkdaşlarının test və esse imtahanı mərhələsi keçirilib. Attestasiyanın test imtahanı mərhələsində iştirak edənlərdən keçid balını toplayan 13 nəfər esse mərhələsində iştirak etmək hüququ qazanıb.

Komissiyanın sədri diqqətə çatdırıb ki, hesabat dövründə muxtar respublikanın dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlərin bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması üçün test imtahanları keçirilib. Həmin imtahanlarda 390 nəfər iştirak edib, keçid balını toplamış 332 müəllimin bilik və bacarıqları qiymətləndirilib.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasının Prokurorluğunda, Dövlət Miqrasiya Xidmətində, Dövlət Gömrük Komitəsində, Vergilər Nazirliyində vakant vəzifələrin tutulması üçün müsabiqələrdə iştirak edən 297 namizəddən 97-si test imtahanlarında müvafiq keçid balını toplayıb.

Ehtiyat kadrlar siyahısında olan 11 namizəddən 4-ü vakant vəzifələrə təyin edilib.

2018-ci ilin 6 ayı ərzində test imtahanlarında iştirak etmiş 1161 nəfərə elektron xidmət göstərilib. 4075 yeni test tapşırığı tərtib edilib ekspertizadan keçirilərək test bankına əlavə olunub. Eyni zamanda müəllimlərin işə qəbulu və diaqnostik qiymətləndirilməsinin aparılması məqsədilə 6 minə yaxın sual alınaraq test bankına yazılıb.

İsmayıl Qəribli vurğulayıb ki, komissiyanın rəsmi internet saytının internet portalına çevrilməsi istiqamətində də işlər görülüb.

Dövlət qulluğu sahəsində qəbul edilmiş normativ-hüquqi aktların dövlət qulluqçuları tərəfindən öyrənilməsi ilə bağlı maarifləndirici tədbirlər hesabat dövründə diqqət mərkəzində saxlanılıb, "Naxçıvan Muxtar Respublikasının birinci-beşinci kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin ikinci-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifələrin tutulmasının Ümumi Şərtləri" və "Dövlət qulluqçularının vəzifə təlimatlarının hazırlanması qaydaları" mövzularında keçirilən seminarda 45 məsul şəxs iştirak edib.

Sonra məruzə ətrafında çıxışlar olub.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***



Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsində keçirilən tədbiri komitənin sədri Müslüm Cabbarzadə açaraq məruzə edib. Qeyd olunub ki, "Naxçıvan Muxtar Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 2 aprel tarixli Fərmanı ilə müəyyənləşdirilmiş vəzifələrin icrasının təmin edilməsi məqsədilə Naxçıvan şəhəri və ətraf yaşayış məntəqələrində, Şərur rayonunun bir neçə kənd yaşayış məntəqəsində daşınmaz əmlak obyektlərinin plana alınması başa çatdırılıb.

Naxçıvan Muxtar Respublikasında ümumi və suvarılan torpaqların torpaq mülkiyyətçiləri, istifadəçiləri arasında bölüşdürülməsi və torpaqlardan istifadə olunmasına dair 1 yanvar 2018-ci il tarixə torpaq balansı tərtib edilərək Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 21 fevral 2018-ci il tarixli qərarı ilə təsdiq edilib. 6 ay ərzində 11 sifarişçi təşkilatın müraciəti əsasında 20-dən artıq müxtəlifməzmunlu xəritə, plan və sxemlər hazırlanaraq aidiyyəti üzrə təqdim olunub.

Diqqətə çatdırılıb ki, ilin ilk 6 ayında muxtar respublika üzrə 1213 torpaq sahəsi, 20 qeyri-yaşayış binası, 35 qeyri-yaşayış sahəsi, 468 mənzil, 993 fərdi yaşayış evi, 10 əmlak kompleksi kimi müəssisə olmaqla, cəmi 2739 daşınmaz əmlak obyekti qeydiyyata alınıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə qeydiyyata alınan daşınmaz əmlak obyektlərinin sayı 12,6 artıb. Hesabat dövrü ərzində hüquqların yüklülüyü haqqında daşınmaz əmlakın dövlət reyestrindən 240 çıxarış hazırlanıb,146 əmlaka dair yüklülükdən azad olunma, 6 əmlak üzərində hüquqların məhdudlaşdırılması, 1 əmlak üzərində hüquqların məhdudlaşdırılmasının ləğvi əməliyyatı aparılıb. Yüklülüyə dair 2029 arayış verilib, 148 sorğu-məktub cavablandırılıb. Vətəndaşın adına daşınmaz əmlakın olub-olmamasına dair 841 arayış hazırlanaraq aidiyyəti üzrə təqdim olunub.

Müslüm Cabbarzadə bəhs olunan dövrdə daxil olmuş müraciətlər əsasında 2020 texniki sənəd hazırlandığını bildirib.

Vurğulanıb ki, 2018-ci ilin I yarımili ərzində muxtar respublika üzrə ilkin qeydiyyat, bölünmə və birləşmə nəticəsində yeni yaranmış 350 daşınmaz əmlak obyektinə ünvan verilib, 96 daşınmaz əmlak obyektinin ünvanına müvafiq dəqiqləşmə aparılaraq düzəliş edilib, 53 ünvan arayışı hazırlanaraq vətəndaşlara təqdim edilib.

Tədbirdə məruzə ətrafında çıxışlar dinlənilib.

* * *

Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyində keçirilən kollegiya iclasında çıxış edən agentliyin direktoru Bəxtiyar İsmayılov bildirib ki, 2018-ci ilin ilk altı ayı ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq fərman və sərəncamları ilə təsdiq edilmiş dövlət proqramlarının icrası diqqətdə saxlanılıb. Qeyd edilib ki, idxal olunan malların etiketlərində və adlarında zəruri məlumatların olmasına nəzarət aparılıb, məhsulların üzərində 26 halda Azərbaycan dilində zəruri məlumatların əks olunması təmin edilib, 2 dağ-mədən sənaye müəssisəsində istehsal olunan məhsulların 4 halda sertifikatlaşdırılması icra edilib. Metroloji norma və qaydalara uyğun olaraq istehlakçılarda olan smartkarttipli 500 ədəd məişət qaz sayğacı, 400 ədəd elektrik sayğacı yoxlanılıb. Meyvə-tərəvəz və



onlardan hazırlanmış məhsulların keyfiyyətinin nəzarətdə saxlanılması tədbirinin icrası çərçivəsində məhsulların 78 halda keyfiyyət göstəriciləri yoxlanıldıqdan sonra sertifikatlaşdırılıb, məhsulların 37 halda laboratoriya analizləri aparılaraq keyfiyyət göstəricilərinin standartların tələblərinə uyğun olduğu müəyyən edilib. Uşaq bağçalarının, məktəblərin, xəstəxanaların və digər təhsil və səhiyyə müəssisələrinin yerli məhsullarla təmin edilməsi və alınan qida məhsullarının keyfiyyətinin müntəzəm nəzarətdə saxlanılması, eləcə də məktəbli ləvazimatlarının keyfiyyət göstəricilərinin müasir standartlara uyğunlaşdırılmasına nəzarət edilməsi tədbirlərinin icrası istiqamətində 74 məktəbin bufetində, 9 təhsil müəssisəsinin bufet və yeməkxanasında və 18 məktəbəqədər tərbiyə müəssisəsində monitorinqlər aparılıb, 47 məktəbin bufetində, 5 təhsil müəssisəsinin bufet və yeməkxanasında, 1 səhiyyə müəssisəsinin yeməkxanasında aşkar olunmuş nöqsanlar aradan qaldırılıb.

Vurğulanıb ki, xarici bazarlara çıxış imkanına malik məhsulların ixracının dəstəklənməsi çərçivəsində tədbirlər icra olunub. Bakı şəhəri və ölkəmizin digər regionlarında yeni fəaliyyətə başlayan "Naxçıvan məhsulları" mağazalar şəbəkəsinin səmərəli fəaliyyətinin qurulması və bu şəbəkənin daha da genişləndirilməsi istiqamətində davamlı tədbirlər icra olunmaqdadır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı"nın icrası çərçivəsində mədəni və yabanı dərman bitkilərinin mövsümə uyğun yığılması, qurudulması, onlardan bitki ekstraktlarının hazırlanması qaydaları ilə bağlı AMEA Naxçıvan Bölməsinin və İqtisadiyyat Nazirliyinin əməkdaşları ilə birlikdə müvafiq rayonlarda fəaliyyət göstərən ailə təsərrüfatları üçün seminarlar keçirilib.

Qeyd olunub ki, hesabat dövründə, ümumilikdə, standartların tələblərinə uyğun olmayan 9106 manat dəyərində yararlılıq müddəti bitmiş, keyfiyyətsiz və ya kontrafakt məhsullar satışdan çıxarılıb, 146 ictimai iaşə və xidmət sahəsinə aylıq dövrlər üzrə maarifləndirmə xarakterli baxış keçirilib, aşkar olunmuş çatışmazlıqlar aradan qaldırılıb. 524 ədədi ərzaq məhsullarına, 493 ədədi qeyri-ərzaq məhsullarına, 4 ədədi isə xidmət sahəsinə aid olmaqla, ümumilikdə, 1021 uyğunluq sertifikatı verilib. Agentliyin Metrologiya şöbəsi tərəfindən 5507 ədəd ölçmə vasitəsinin yoxlanılması təmin olunub. Əmtəə nişanına dair 24 şəhadətnamə iddiaçılara təhvil verilib və 27 əmtəə nişanı üzrə ekspertiza işi davam etdirilib.

Sonra agentliyin müxtəlif şöbələri üzrə görülmüş işlərə dair hesabatlar dinlənilib, qarşıya qoyulmuş vəzifələr diqqətə çatdırılıb.

**Xəbərlər şöbəsi**

# Kommunal təyinatlı yeni konteynerlər təqdim olunub

***Dünən muxtar respublikaya gətirilmiş 340 ədəd kommunal təyinatlı konteynerin təqdimatı olub.***





Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Səbuhi Məmmədov çıxış edərək deyib ki, son illər doğma diyarımızda həyata keçirilən tikinti-quruculuq tədbirlərinin həcmi xeyli genişləndirilib, yaşayış məntəqələri müasirliyə, gözəlliyə qovuşub. Bu gözəlliyin, abadlığın və səliqə-sahmanın qorunması qarşıda duran başlıca vəzifələrdəndir. Ona görə də muxtar respublikada kommunal xidmətlərin səviyyəsinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür, yeni texnika və avtomobillər alınıb gətirilir.

Qeyd edilib ki, 2017-ci ilin əvvəlindən başlayaraq kəndlərdə məişət tullantılarının yığılması, daşınması və zərərsizləşdirilməsi xidmətlərinin bələdiyyələr tərəfindən həyata keçirilməsinə başlanılıb və layihə uğurla tamamlanıb.

Diqqətə çatdırılıb ki, muxtar respublika sakinlərinin məişət və ictimai iaşə xidmətlərindən keyfiyyətlə yararlanması kifayət qədər önəmli sahədir və bunun üçün dövlətimiz tərəfindən bütün zəruri işlər görüləcəkdir. Nazir yeni konteynerlərin təqdim olunmasını da bu istiqamətdə həyata keçirilən tədbirlərin tərkib hissəsi kimi dəyərləndirib, bu sahədə çalışan kollektivlərə işlərində uğurlar arzulayıb.

Babək rayon Yarımca kənd bələdiyyəsinin sədri Arif Cəfərov göstərilən diqqətə, yaradılan şəraitə görə dövlətimizə minnətdarlıq edib.

Qeyd edək ki, gətirilən 340 yeni konteynerdən 40-ı Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə, 5-i Naxçıvan Şəhər Sanitar-Təmizlik İdarəsinə, qalanları isə bölgələrdə fəaliyyət göstərən bələdiyyələrə verilib.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

# Naxçıvanlı sahibkarların beynəlxalq əməkdaşlıq imkanları artır

***Son illər muxtar respublikada emal və istehsal müəssisələrinin sayının artması regionumuzda sahibkarlıq fəaliyyətinə geniş yer verilməsinin göstəricisidir. Bu müəssisələrdə istehsal olunan məhsullar daxili bazarın qorunmasında mühüm əhəmiyyət daşıyır. Dünyaya inteqrasiya olunduğumuz bir dövrdə artıq sahibkarlar daxili bazarla kifayətlənməyərək həm də rəqabətədavamlı, ixracyönümlü məhsul istehsalına da ciddi fikir verirlər.***




Həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində sahibkarlıq subyektləri öz məhsullarını xarici bazarlara çıxarmaq imkanı da qazanıblar. Keyfiyyətli və ixracyönümlü məhsul istehsalı işin bir tərəfidirsə, onun xarici bazara çıxarılması üçün şərait yaradılması digər tərəfidir. Bu cəhətdən xarici ölkələrdə təşkil olunan beynəlxalq sərgilər mühüm əhəmiyyət daşıyır. Son illərdə muxtar respublika sahibkarları da belə sərgilərə qatılır, regionumuzda istehsal edilən məhsulları nümayiş etdirir, bununla xarici ölkələrdə də alıcı qüvvəsi toplayırlar.

Bu cür tədbirlər cari ilin ötən dövrü ərzində də davam etdirilib. Belə ki, 2018-ci ilin 9-26 yanvar tarixlərində Almaniya Federativ Respublikasının Berlin şəhərində kənd təsərrüfatı, bağçılıq və ərzaq sahələrində dünyanın ən mötəbər beynəlxalq sərgilərindən biri olan və illik əsasda təşkil edilən "Beynəlxalq Yaşıl Həftə – 2018" sərgisində naxçıvanlı sahibkarların iştirakı, ilk növbədə, muxtar respublikanın ixrac potensialını bir daha ortaya qoydu. Yeni iqtisadi əlaqələrin qurulmasına xidmət edən bu sərgi çərçivəsində muxtar respublikanın 8 istehsalçı şirkətinin 10 növdə 39 çeşiddə məhsulu çıxarılmışdı.

Bu ilin 13-16 fevral tarixlərində İran İslam Respublikasının Şiraz şəhərində "Yeyinti sənayesi və ona bağlı makinalar" mövzusunda keçirilmiş beynəlxalq sərgidə "Naxçıvan Məhsulları", "Savalan-S", "Ordubad Qənnadı Məmulatları", "Nur Qida", "Karton Tara" Məhdud Məsuliyyətli cəmiyyətlərinin, həmçinin "Müasir Məkan" ət və ət məhsulları, "Xaloğlu" istehsal müəssisələrinin nümayəndələrinin iştirakı təmin edilib.

Bundan başqa, 2018-ci ilin 18-22 fevral tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilmiş "Gulfood – 2018" Beynəlxalq Qida Sərgisində "Ləzzət Qida Sənaye" və "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli cəmiyyətlərinin nümayəndələri iştirak ediblər. Tədbirdə "Made in Azerbaijan" vahid ölkə stendi altında "Ləzzət Qida Sənaye" MMC-nin 2 növdə 14 çeşiddə qazlı və qazsız "Sirab" mineral suları, "Gəmiqaya Mineral Sular" MMC-nin isə 1 növdə 5 çeşiddə qazsız "Badamlı" mineral suları nümayiş olunub.

Bu ilin 2-6 mart tarixlərində isə İran İslam Respublikasının Urmiya şəhərində keçirilmiş Naxçıvan Muxtar Respublikasında istehsal olunan ərzaq məhsulları və əl işlərinin sərgi-satışı da muxtar respublika sahibkarları üçün uğurlu olub. Sərgidə diyarımızın 26 sahibkarlıq subyektinin 25 nümayəndəsinin iştirakı təmin edilib, muxtar respublikada istehsal olunan 249 adda ərzaq və qeyri-ərzaq məhsulları nümayiş olunub.

Naxçıvandan bu qədər müəssisənin sərgilərə qatılması, beynəlxalq standartlara cavab verən məhsulların çıxarılması, bu məhsulların çoxçeşidliliyi son illərdə diyarımızın inkişafının sübutudur. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə həyata keçirilən iqtisadi islahatlar sahibkarlığın inkişafına təkan verib, həyat səviyyəsinin yaxşılaşdırılmasına və iqtisadiyyatın gücləndirilməsinə nail olunub. Son illərdə muxtar respublikada ardıcıl və sistemli şəkildə dövlət mülkiyyətində olan müəssisələrin özəlləşdirilməsi və azad sahibkarlığın inkişafı prosesinə təsirsiz qalmayıb.

Sahibkarlığın inkişafında kredit siyasətinin düzgün həyata keçirilməsi, bu sahədə dövlət nəzarətinin gücləndirilməsi, şəffaflığın təmin olunması da qazanılan uğurların əsas səbəblərindəndir. Bir faktı qeyd etmək yerinə düşər ki, təkcə cari ilin ötən dövrü ərzində Sahibkarlığa Kömək Fondundan verilmiş kreditlərin həcmi 5 milyon 609 min 700 manat olub. Sahibkarlıq fəaliyyətinin davamlı inkişaf dinamikasını xarakterizə edən mühüm bir amil ondan ibarətdir ki, bu gün muxtar respublikada 126 növdə 570 çeşiddə ərzaq, 250 növdə 848 çeşiddə qeyri-ərzaq olmaqla, ümumilikdə, 376 növdə 1418 çeşiddə məhsul istehsal olunur. 108-i ərzaq, 236-sı qeyri-ərzaq olmaqla, 344 növdə məhsula tələbat tamamilə yerli istehsal hesabına ödənilir.

Əldə olunan inkişaf isə bu gün imkan verir ki, naxçıvanlı iş adamları beynəlxalq tədbirlərdə geniş bir heyətlə iştirak etsinlər və muxtar respublikamızın iqtisadi yüksəlişini, sənayeləşmə yolunda qətiyyətli addımlarını yüksəkkeyfiyyətli, beynəlxalq standartlara uyğun məhsullarla sərgiləyə bilsinlər. Bu gün dövlətin diqqət və qayğısı nəticəsində muxtar respublikada belə müəssisələr yaradılmasaydı, bu müəssisələrdə keyfiyyətli məhsul istehsal edilməsəydi, heç şübhəsiz ki, hər hansı beynəlxalq sərgidə iştirak etməkdən də söhbət gedə bilməzdi.

Naxçıvanlı sahibkarlar bu il muxtar respublikamızı daha bir əhəmiyyətli beynəlxalq tədbirdə uğurla təmsil ediblər. Belə ki, Pakistan iş adamlarından ibarət nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində Bakı şəhərində Azərbaycan-Pakistan biznes konfransı keçirilib. Tədbirdə rəsmi şəxslərlə yanaşı, hər iki tərəfdən sənaye, kənd təsərrüfatı, əczaçılıq, tikinti, sığorta, turizm, logistika və digər sahələrdə fəaliyyət göstərən 250-yə yaxın iş adamı iştirak edib.

Biznes konfrans ticarət əlaqələrinin inkişafında, iş adamları arasında işgüzar əlaqələrin genişlənməsində, həmçinin yeni əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsində əhəmiyyətli rol oynadığından bu tədbirə Naxçıvan Muxtar Respublikasının nümayəndə heyəti də qatılıb.

Qeyd edək ki, nümayəndə heyətinin tərkibinə muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektlərindən "Miraj Gold", "Ləzzət Qida Sənaye", "Naxçıvan Avtomobil Zavodu", "Dekor Qrup", "Ordubad Qənnadı Məmulatları", "Böyrək Suyu" Məhdud Məsuliyyətli Cəmiyyətinin, "Danyeri" istehsal və xidmət, eləcə də "Zümrüd" Kiçik müəssisələrinin nümayəndələri iştirak ediblər.

Tədbir çərçivəsində Azərbaycan və Pakistanın biznes və investisiya imkanlarına dair təqdimatlar keçirilib, eləcə də sahibkarlar arasında ikitərəfli görüşlər təşkil olunub.

İkili görüşlər çərçivəsində "Böyrək Suyu" Məhdud Məsuliyyətli Cəmiyyəti nümayəndəsinin "Waien Trading Ltd." şirkətinin nümayəndəsi ilə perspektiv əməkdaşlıq imkanları haqqında qarşılıqlı müzakirələri aparılıb.

Azərbaycan-Pakistan biznes konfransı bu iki ölkə arasında iqtisadi əlaqələri əhatə edən işgüzar diskussiyalar, imzalanan mühüm sənədlər və iş adamlarının faydalı görüşləri ilə əlamətdar olub.

Ümidvarıq ki, bu tədbirlər naxçıvanlı iş adamları üçün yeni üfüqlər açacaq, muxtar respublikamızın ixrac potensialının daha da artırılmasına kömək edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

***Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasından irəli gələn vəzifələrlə bağlı Ordubad Rayon İcra Hakimiyyətində keçirilən müşavirəni rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov açaraq məruzə ilə çıxış edib.***

# Müşavirə keçirilib



Bildirilib ki, Ordubad rayonu da 2018-ci ilin birinci yarısını yüksək göstəricilərlə başa vurub. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən təsdiq olunmuş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"ndan irəli gələn vəzifələr Ordubad rayonunda da ardıcıl olaraq həyata keçirilir.

Bildirilib ki, 2018-ci ilin yanvar-iyun aylarında iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 29861,8 min manat və ya 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çox vəsait yönəldilib. Tikinti-quraşdırma işlərinə qoyulan vəsaitin dəyəri 1,7 faiz artaraq 28771,6 min manat təşkil edib.

2018-ci ilin 6 ayında Ordubad Dəmir Yol Vağzalının yeni binası və "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin İnfrastruktur İdarəsinin Ordubad Yol Sahəsinin inzibati binası istifadəyə verilib. Ordubad şəhərində içməli su və kanalizasiya sisteminin, Ordubad Su Elektrik Stansiyasının, Dəstə kəndində yeni məktəbin, kənd və xidmət mərkəzlərinin, həkim ambulatoriyasının, mərasim evinin tikintisi, kənddaxili yolların əsaslı təmiri, kommunikasiya xətlərinin yenilənməsi işləri davam etdirilib. Ordubad şəhərində Rabitə Evinin tikintisi başa çatmaq üzrədir. Binanın yanında yeni park salınıb. "İstanbul" küçəsindəki 24 mənzilli bina əsaslı təmir olunub və ətrafı abadlaşdırılır. Culfa-Ordubad magistral yolu yenidən qurulur.

Diqqətə çatdırılıb ki, 2018-ci ildə kənd təsərrüfatında məhsuldarlığın artmasına dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin icrası da müsbət təsir göstərib və aqrar sahənin davamlı inkişafı təmin olunub.

Rayonda 2018-ci ilin məhsulu üçün 3937 hektar sahədə əkin aparılıb. Əkin sahəsinin 1964 hektarını dənli və dənli-paxlalı bitkilər (qarğıdalısız), 1 hektarını dən üçün günəbaxan, 675 hektarını tərəvəz, 43 hektarını ərzaq üçün bostan bitkiləri, 577 hektarını kartof, 66 hektarını birillik, 273 hektarını cari, 338 hektarını isə əvvəlki illərdə əkilmiş çoxillik otlar təşkil edir.

Ordubad Rayon Rabitə İdarəsi 35 ATS vasitəsilə rayon əhalisinə xidmət göstərir. Rayonun bütün kəndləri internetlə təmin olunub.

Rayonda 33 tam, 2 ümumi orta, 1 ibtidai, 1 internat, 1 peşə məktəbi və 4 məktəbdənkənar tərbiyə müəssisəsi fəaliyyət göstərir. 2018-ci ildə rayon məktəblərində elektron lövhələrin sayı 81, kompüterlərin sayı 534 ədəd olub.

Ötən dövrdə rayon əhalisinə 66 çarpayılıq rayon Mərkəzi Xəstəxanası, 1 Gigiyena və Epidemiologiya Mərkəzi, 12 kənd həkim ambulatoriyası, 29 feldşer-mama məntəqəsi, 5 aptek xidmət göstərib.

Rayonun mədəniyyət işçiləri bayram günlərində rəngarəng musiqi proqramları hazırlayaraq əhali qarşısında və bölgə ərazisində yerləşən hərbi hissələrdə çıxışlar ediblər. 6 ay ərzində rayonun Mərkəzləşdirilmiş Kitabxana Sistemində və onun tabeliyində olan kənd kitabxanalarında sərgilər təşkil olunub və müxtəlif tədbirlər keçirilib.

Məruzə ətrafında Ordubad Rayon Statistika İdarəsinin rəisi Namiq Babayev və Maliyyə Şöbəsinin müdiri Bəxtiyar Əsgərov çıxış ediblər.

**Abbas SEYİD**

# *"Badamlı"* mineral suyu Çinə ixrac ediləcək

"Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyətinin ixrac potensialı ildən-ilə artır. Hazırda "Badamlı" mineral suyu Rusiya Federasiyasına və Birləşmiş Ərəb Əmrliyinə ixrac olunur. Bu mineral su yaxınlarda Çin Xalq Respublikasına da ixrac ediləcək.



Zavodda məhsulun keyfiyyətinə ciddi nəzarət olunur. Burada Almaniya istehsalı olan müasir avadanlıqlarla təmin edilmiş xüsusi laboratoriya qurulub. Zavodda tələbata uyğun olaraq 0,5, 1, 1,5 litrlik plastmas, 0,3, 0,6 litrlik şüşə butulkalarda qazlı və qazsız, 5 və 19 litrlik plastmas taralarda qazsız su buraxılır. İstehsal olunan məhsul muxtar respublikamızın tələbatını ödəməklə yanaşı, Bakı şəhərində və ölkəmizin digər regionlarında da satışa çıxarılır.

"Badamlı" mineral suyuna tələbat ildən-ilə artdığı üçün hazırda Şahbuz rayonunun Badamlı qəsəbəsində yeni zavod tikilir. Bu zavod hazırkı müəssisədən daha böyük və yüksək texniki imkanlara malik olacaq.

**Xəbərlər şöbəsi**

# Günnüt xalçalarının təqdimatı keçirilib

***İyulun 18-də Naxçıvan Dövlət Xalça Muzeyində Günnüt xalçalarının təqdimatı olub.***

Tədbirdə Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək deyib ki, muxtar respublikada xalçaçılıq sənətinin inkişafı istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin himayəsi ilə 1998-ci ildə yaradılan Naxçıvan Dövlət Xalça Muzeyi 2010-cu ildə yeni bina ilə təmin olunub. Muzeyin 2013-cü ildə üç dildə internet saytı istifadəyə verilib. Bu da muzeyi virtual ziyarət etməyə, ziyarətçilərə ekspozisiyadakı eksponatlarla bağlı məlumatlar verməyə, tarixi keçmişimizi öyrənməyə imkan yaradıb. Həmçinin muzeyin ekspozisiyasının zənginləşdirilməsi də diqqətdə saxlanılıb. Bu istiqamətdə görülən işlərin nəticəsidir ki, hazırda muzeyin ekspozisiyasında sərgilənən xalçaların hamısı Naxçıvan xalçaçılıq məktəbinə aiddir. Qeyd olunub ki, bu gün keçirilən tədbir bir daha sübut edir ki, Azərbaycan xalqı öz tarixi köklərinə və mədəniyyətinə sahib çıxan xalqdır. Naxçıvan Dövlət Xalça Muzeyinə hədiyyə edilən Günnüt xalçaları bu kənddə yaradılmış mədəni irsimizin bir parçası olmaqla yanaşı, həm də tariximizi yaşadan eksponatdır.

AMEA Naxçıvan Bölməsinin sədri İsmayıl Hacıyev bildirib ki, Naxçıvanda xalça sənətinin tarixi olduqca qədimdir. Bu sənət ibtidai formada olsa da, Neolit və Erkən Eneolit dövrlərində formalaşıb. I Kültəpə, Naxçıvantəpə və digər arxeoloji abidələrdən tapılmış maddi-mədəniyyət nümunələri insanların xalçaçılıq sənəti ilə Neolit dövründən məşğul olmasını göstərir. Vaxtilə ölkəmizdə bu sahəyə lazımi diqqət yetirilməyib. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişindən sonra mədəni irsimizin qorunmasına və inkişafına diqqət və qayğı artırıldı. Nəsildən-nəslə ötürülərək günümüzə



qədər gəlib çatan xalçaçılıq sənətinin unudulmaması, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə dövlət proqramının qəbul olunması muxtar respublikada bu sənətə göstərilən dövlət qayğısının nümunəsidir. Eyni zamanda son illər nəfis tərtibatlı “Naxçıvan xalçaları”, “Naxçıvan xalçaçılığı: ənənə və müasirlik”, “Naxçıvan diyarında sənətkarlıq və ticarət (XVIII-XX əsrin əvvəlləri)” kitab və monoqrafiyaları, “Azərbaycan xalçaları: Naxçıvan qrupu” jurnalı və “Azərbaycan xalçaları” jurnallarında Naxçıvan xalçaçılıq sənəti ilə bağlı nəşr olunmuş məqalələri xüsusi ilə qeyd edilməlidir. İsmayıl Hacıyev muxtar respublikada xalçaçılıq sənətinin inkişafına göstərilən diqqətə görə elm adamları adından minnətdarlığını bildirib.

“Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri, professor Vidadi Muradov təqdimat mərasimində çıxış edərək deyib ki, Naxçıvan qədim mədəniyyət mərkəzi olmaqla yanaşı, müasir dövrdə həm də öz inkişafı ilə seçilən bir diyara çevrilib. Bəşər tarixində blokada şəraitində intibah yaratmağın yeganə nümunəsi Naxçıvandır. Ulu öndər Heydər Əliyevin yolunun uğurla davam etdirilməsinin nəticəsidir ki, muxtar respublikada nəhəng quruculuq işləri həyata keçirilib, bütün sahələrdə mühüm nailiyyətlər əldə edilib. Bu qədim diyarımızda hər il yeni-yeni uğurların, böyük tarixi hadisələrin şahidi oluruq. Bu il muxtar respublikada əldə olunan, bütün Azərbaycan xalqını sevindirən mühüm nailiyyətlərdən biri də Əlahiddə Ümumqoşun Ordusunun Günnüt kəndini işğaldan azad etməsidir. Günnüt Azərbaycanın qədim yurd yerlərindən biridir. Tarixən bu kəndin yerləşdiyi ərazidə oğuz türkləri yaşayıblar. Bunu son günlər aşkara çıxardığımız Günnüt xalçaları da sübuta yetirir. “Azərxalça” Açıq Səhmdar Cəmiyyəti dünyanın nüfuzlu muzeylərində, şəxsi kolleksiyalarda, eləcə də ölkəmizdə şəxsi kolleksiyalarda saxlanılan qədim və nadir Azərbaycan xalçalarını tapıb ictimaiyyətə təqdim edir. Naxçıvanda toxunan tarixi xalçaların aşkara çıxarılması istiqamətində də axtarışlar aparırıq.

Naxçıvanda xalçaçılığın inkişaf etdirilməsi istiqamətində çox mühüm tədbirlər həyata keçirilir, tədqiqatlar aparılır, yeni nəşrlər hazırlanır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə təsdiq olunan “Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunması və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı” bu işlərin uğurla həyata



keçirilməsinə öz töhfəsini verir. Bu günə qədər Naxçıvanın 69 kəndindən 254 xalçaçı haqqında məlumatlar toplanılıb. Aparılan tədqiqatlardan sonra belə qənaətə gəlinib ki, Naxçıvan tarixən Azərbaycanın əsas xalçaçılıq mərkəzlərindən biri olub, burada özünəməxsus orijinal xalçalar toxunub. Tədqiqatların nəticəsi kimi, Azərbaycan, ingilis və rus dillərində “Naxçıvan xalçaları”, “Naxçıvan xalçaçılığı: ənənə və müasirlik” kitabları, 6 dildə “Azərbaycan xalçaları – Naxçıvan qrupu” broşürü nəşr olunub, “Naxçıvan xalçaları” sənədli filmi hazırlanıb. Bu nəşrlər müxtəlif ölkələrin 103 universitet, kitabxana və muzeylərinə göndərilib, dünyanın nüfuzlu kitabxanalarının elektron bazalarına yerləşdirilib. İngilis dilində olan kitablar Nyu-Yorkda, rus dilindəki nəşrlər isə Moskvada çap edilib.

Vidadi Muradov xalçaçılığın inkişafına göstərdiyi diqqət və qayğıya, eləcə də Günnüt xalçalarının yüksək səviyyədə təqdimatının keçirilməsinə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə bütün tədqiqatçılar adından minnətdarlığını bildirmişdir.

Təqdimat mərasimində Şərur rayonunun Günnüt kəndindən olan xalçaçı Solmaz Məmmədova çıxış edərək demişdir: Azərbaycanın qədim yurd yeri olan Günnüt kəndində xalçatoxuma sənətinin qədim tarixi vardır. Kəndimizdə əsrlərlə yaşı olan qədim xalça nümunələri olmuşdur. Yaxşı xatırlayıram ki, kəndimizdə gənc qızlara xalçaçılıq sənətini öyrətmək artıq adət-ənənəyə çevrilmişdi. Hər il Günnüt kəndində yüzlərlə xalça toxunardı. Mən də gənc yaşlarımdan bu kənddə xalçatoxuma ilə məşğul olmuşam. Təəssüflər olsun ki, 26 il əvvəl ermənilər Günnüt kəndini işğal etdikdən sonra sakinlər Şərur rayonunun digər kəndlərində məskunlaşdılar. Kəndimiz işğalda olsa da, günnütlülər öz qədim adət-ənənələrindən uzaq düşmədilər. Günnüt kəndinə məxsus zəngin mədəni irsi, xüsusilə də xalçaçılıq sənətini qoruyub saxladılar. Bu ilin may ayında Günnüt kəndi işğaldan azad olundu. Biz günnütlülər öz ata-baba yurdumuza qovuşmuşuq. Əzəli yurd yerimizə qovuşmağın sevincini yaşamaqla yanaşı, həm də xoşbəxtik ki, kəndimizin adətləri, ənənələri, dəyərləri də özünə qaytarıldı. Dövlətimizə, ordumuza bütün günnütlülər adından minnətdarlıq edirəm. Çünki təkcə doğma kəndimiz deyil, həm də mədəni irsimiz özümüzə qaytarılıb.

Sonra Günnüt xalçalarına və muzeyin ekspozisiyasına baxış olub.

Məlumat verilib ki, “Azərxalça” Açıq Səhmdar Cəmiyyəti tərəfindən vaxtilə Günnüt kəndində toxunmuş 6 ədəd xovlu və xovsuz xalça, xalça məmulatı aşkarlanıb. Bu xalçaların üzərində qədim oğuz türklərinə məxsus naxışlar öz əksini tapıb. Bu xalq sənəti nümunələri 19-cu əsrin sonlarına və 20-ci əsrin əvvəllərinə aiddir.

**“Şərq qapısı”**

*Naxçıvanın türk-islam mədəniyyəti abidələri*

# Naxçıvan imamzadələri

***Naxçıvanda yerləşən müqəddəs məkanlar əsrlərdən bəri zəvvarların ziyarətgahına çevrilib. Muxtar respublikamızın müxtəlif bölgələrində ucaldılan imamzadələr də belə inanc yerlərindəndir. Onların hər birinin özünəməxsus quruluşu və tarixi əhəmiyyəti vardır. Bu abidələr xalqımızın İslam dininə bəslədiyi ehtiramın ifadəsidir.***



İmamzadə haqqında danışarkən onu da deyək ki, “imamzadə” sözü “imam övladı”, “imam nəslindən olan” mənasını ifadə edir. Naxçıvan şəhərində, Babək rayonunun Nehrəm kəndində və Şərur rayonunun Xanlıqlar (Parçı) kəndindəki imamzadələr Səfəvilər dövründə inşa edilib. Tədqiqatçılar təsdiq edirlər ki, orta əsrlər zamanı bu komplekslərin funksiyası təkcə ziyarətgah-pir olmaqla məhdudlaşmayıb, həmin tikililər həm də ərazidə fəaliyyət göstərən sufi təriqətlərinin üzvlərinin yığıncaq, ibadət, zikr və s. yeri olub.

Naxçıvan şəhərindəki İmamzadə kompleksi bu gün şəhər sakinlərinin ən çox ziyarət etdiyi ünvanlardandır. Şəhərin cənub hissəsində yerləşən bu kompleks 3 tikilidən ibarətdir. Kompleksin əsasını cənub tərəfdə yerləşən türbə təşkil edir. Qədim və zəngin sənətkarlıq xüsusiyyətlərinə malik türk və müsəlman memarlığı ənənələrinin qarşılıqlı vəhdətini ehtiva edən bu türbə xarici qonaqların, eləcə də tədqiqat işi ilə məşğul olan alimlərin diqqətini çəkir. Zaman-zaman bu tikili haqqında bir çox tədqiqatçı alimlər araşdırma aparıb, fikir söyləyiblər.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli deyir ki, abidənin yuxarı hissəsində, silindrşəkilli gövdəsində memar çox ustalıqla qırmızı rəngli bişmiş kərpicləri üfüqi, tünd-bənövşəyi kaşılı kərpicləri isə şaquli şəkildə simmetrik düzüb. Bərdə türbəsində olduğu kimi, xalını xatırladan bəzək ünsürü və kufi xətlə dəfələrlə təkrarlanan epiqrafik motiv: “Allah” sözü yaradıb. Türbənin içərisində əhali tərəfindən ziyarət edilən bir qəbir vardır. Qəbrin üzərində epitafiya – məzar kitabəsi olmadığı üçün onun kimə aid olduğu haqqında dəqiq fikir söyləmək mümkün deyil. Ancaq şəhərin yaşlı sakinlərinin söylədiyinə görə, bu qəbirdə şiələrin səkkizinci imamı İmam Rzanın oğlu dəfn edilib. Epiqraf alim İsa Əzimbəyovun keçən yüzilliyin iyirminci illərində yazdığına görə, türbənin şimal-qərb tərəfində nəsx xətti ilə ərəb dilində yazılmış kitabə olub. Kitabənin mətnindən məlum olur ki, bu tikilinin bina edilməsini böyük sultan, xaqan, hörmətli əmir sultan Əbu Müzəffər şah Təhmasib Bahadır xanın hakimiyyəti zamanında mərhum, günahları bağışlanmış, Hacı Fulad bəyin oğlu, zəmanənin xeyirxahı Həzrət Rufai bəy əmr edib. Kitabədə tarix qeyd olunmasa da, orada vurğulanan “Əbu Müzəffər şah Təhmasib Bahadır xanın hakimiyyəti zamanında” sözlərinə əsasən türbənin inşa tarixini müəyyənləşdirmək mümkündür. Belə ki, Əbu Müzəffər şah Təhmasib Bahadır xan Səfəvi hökmdarı şah Sultan Hüseynin oğludur. Tarixdə II şah Təhmasib adı ilə tanınan bu tarixi şəxsiyyət 1722-32-ci illərdə Səfəvilər dövlətində hakimiyyətdə olub. Bundan belə bir fikir ortaya çıxır ki, türbə XVIII əsrin 20-ci illərində inşa edilib.

İbadətgahlar xalqımızın inanc yerləridir. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi bir daha ona dəlalət edir ki, bütün İslam dünyası Naxçıvanın islami dəyərlərin qorunmasında mərkəz olmasına hörmətlə yanaşır. Burada konfransların, simpoziumların və digər tədbirlərin keçirilməsi onu göstərir ki, qədim diyar bu vəzifəni uğurla yerinə yetirir.

Təqdirəlayiq haldır ki, bu gün Naxçıvanda görülən irimiqyaslı tədbirlər nəticəsində tarixi mirasımız sayılan mədəniyyət abidələrimiz bərpa olunaraq xalqa qaytarılır. Müstəqillik illərində bir neçə dəfə təmir-bərpa olunan İmamzadə kompleksi ötən il yenidən quruculuq ərməğanına çevrilib. İlkin mərhələdə bərpaçılar tərəfindən türbənin fasad və daxili hissəsində divarlar köhnə üzlük boya və materiallardan təmizlənib, tarixi tikilinin aşağı hissəsinin rütubətdən qorunması üçün betonlama işləri həyata keçirilib. Günbəz hissədə və daxildə bərpa işləri aparılıb. Bundan başqa, türbənin arxa hissəsindəki torpaq qatı götürülüb, istinad divarları yaradılıb, yağış sularının buraya zərər verməməsi üçün sistemlər quraşdırılıb. Ərazidə abadlıq işləri görülüb, müasir işıqlandırma sistemləri qurulub.

2018-ci il üçün Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı seçilməsi qədim diyarımızdakı İslama xas abidələrə bəslənilən münasibətin nəticəsi kimi dəyərləndirilir. Naxçıvan şəhərindəki İmamzadə kompleksinin yenidən həyata qaytarılması məhz İslam mədəniyyətinə verilən ən böyük töhfələrdəndir.

**Nail ƏSGƏROV**

# I və IV ixtisas qrupları üzrə qəbul imtahanı olub

***Dövlət İmtahan Mərkəzi iyulun 18-də 2018-2019-cu tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə I və IV ixtisas qrupları üzrə qəbul imtahanı keçirib.***



İmtahanlar respublikanın 11 şəhərində – Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Şəki, Bərdə, Göyçay, Şirvan, Lənkəran və Xaçmazda, ümumilikdə, 49 binada aparılıb. İmtahanların idarə olunmasına 183 imtahan rəhbəri və orta ümumtəhsil müəssisələrindən 2137 nəzarətçi-müəllim cəlb olunub.

26332 abituriyentin iştirak etdiyi imtahanda 21 min 734 abituriyent I qrup, 4598-i isə IV qrup üzrə imtahan verib. Abituriyentlərdən 24 min 244-ü Azərbaycan, 2088-i isə rus bölməsinin məzunlarıdır. Onların 15 min 496-sı oğlan, 10 min 836-sı isə qızdır.

Məlumat üçün bildirək ki, Naxçıvan şəhərində imtahanlar 7 və 14 nömrəli tam orta məktəblərdə keçirilib. İmtahana 82 nəzarətçi, 6 imtahan rəhbəri cəlb olunub, bir gün əvvəl onlar üçün seminar-treninqlər təşkil edilib. Ümumilikdə, 858 abituriyent imtahan verib. İmtahan bütün binalarda eyni vaxtda – saat $11^{00}$-da başlanıb və 3 saat davam edib.

İmtahan başa çatdıqdan sonra müstəqil ekspertlər tərəfindən test tapşırıqlarının ekspertizası aparılıb. Həmin gün “Space” telekanalında canlı yayımlanan “Abituriyent” verilişində Dövlət İmtahan Mərkəzinin məsul əməkdaşları və ekspertlər tərəfindən imtahanda istifadə olunmuş sualların düzgün cavabları və test tapşırıqları ilə bağlı geniş izahat verilib. İmtahanda istifadə olunmuş sualların düzgün cavabları Dövlət İmtahan Mərkəzinin internet saytında və “Facebook” səhifəsində yerləşdirilib.

Abituriyentlərin cavab kartlarının emalı başa çatdıqdan sonra nəticələr və hər bir abituriyentin cavab kartının qrafik təsviri imtahandan 3-4 gün sonra mərkəzin rəsmi internet saytında *(www.dim.gov.az)* yerləşdiriləcəkdir.

**Güntac ŞAHMƏMMƏDLİ**

## Cansız daşa “can bəxş edən” usta

***Hələ ən qədim dövrlərdən ibtidai insanlar daş alətlər vasitəsilə özlərinə müxtəlif əşyalar düzəldərək ov ediblər. Daş insanların estetik zövqünün inkişaf etdirilməsində böyük rol oynayıb. Əbəs deyildir ki, ilk rəsm nümunələri də daş və qayalar üzərində cızılıb.***



Azərbaycanda daş üzərini bəzəmək, onlarda kəsmə, oyma, cızma üsulu ilə naxışlar açıb insan, heyvan və başqa təsvirləri həkk etmək XI-XIII əsrlərdə dekorativ-tətbiqi sənətin geniş yayılmış sahələrindən biri kimi çox qədim və zəngin ənənəyə malikdir. Bu əsrlərə aid daş bəzəklərinə, əsas etibarilə, memarlıq abidələrində və məzar daşlarının üzərində təsadüf edilir. Zəngin daş yataqlarına malik olan Naxçıvan bölgəsinin sakinləri bir sıra yaşayış məskənlərində daş üzərində işləmə, bədii daşyonma mərkəzləri yaradıblar. Burada çalışan ustalar bölgənin daş ehtiyatından xammal mənbəyi kimi istifadə edərək, yaşadıqları dövrdə sonralar saxtalaşdırılması mümkün olmayan çoxlu abidələr yaradıb gələcək nəsillərə yadigar qoyublar. Bu qədim sənət bu gün də muxtar respublikamızda yaşadılır. Sənətkarlar yaratdıqları əsərlərlə şəhər və rayonlarımızın gözəlliyinə xüsusi çalarlar bəxş edirlər.

Naxçıvan şəhərindəki və rayon mərkəzlərindəki istirahət parklarında, küçə və meydanlarda düzülən və doğma diyarımızın hüsnünə xüsusi gözəllik qatan müxtəlif heyvan və quş heykəlləri hamının diqqətini özünə cəlb edir. Elə biz də bu sənət əsərlərinin kimə aid olduğu ilə maraqlandıqda öyrəndik ki, Şərur rayonunun Muğancıq-Mehrab kəndində yaşayan Dərgah Hüseynov 300-ə yaxın belə sənət əsəri ərsəyə gətirib. Usta nəinki Şərurda, muxtar respublikanın digər rayonlarında da yaratdığı əl işləri ilə tanınır.

Cansız daş parçalarından bacarıqla istifadə edərək əsərlər yaradan Dərgah deyir ki, uşaqlıqdan bu sahə ilə maraqlanıb, şəkillər çəkib, taxtadan, keramikadan, plastik parçalardan müxtəlif suvenirlər hazırlayıb. 15 ildən çoxdur ki, bu işlə məşğul olan gənc usta həmin sənəti müstəqil şəkildə, daş üzərində sadə fiqurlar çəkib oymaqla öyrənib. Deyir ki, daşyonma ustadan istedad, təmkin, böyük zəhmət, dəqiqlik, incəlik, xüsusilə də rəssamlıq bacarığı tələb edir. Bunlar kompleks şəkildə olanda yaxşı əsər meydana gəlir. Dərgah onu da bildirir ki, təkcə daş üzərində işləmir. Metaldan da bəzi əl işləri düzəldir. Əgər yaxşı bir sənət əsəri yaratmaq istəyirsənsə, yaradacağın əsərə onu satmaq, ondan qazanc götürmək fikri ilə işə yanaşmamalısan. Yalnız sənətə yararlı münasibət, sözün həqiqi mənasında, yaxşı işləri ortaya çıxara bilər. Əgər ondan təmənnan varsa, yəni ona olan sevgin təmənnasız deyilsə, iş də yaxşı alınmayacaq. O, istifadə etdiyi xammalı ən çox Sədərək rayonundakı Vəlidağdakı müəyyən laylardan gətirərək istifadə edir. Usta vurğulayır ki, heykəl üçün istifadə olunan bu daş parçalarını seçərkən diqqətli olmaq lazımdır. Çünki daşı seçərkən onun keyfiyyəti yaradacağımız heykəlin tez və asan başa gəlməsində mühüm rol oynayır. Yəni daş elə olmalıdır ki, ona çəkic və digər alətlərlə toxunduqda o çatlamasın və istədiyimiz formanı ala bilək. Digər lazım olan xammalı isə Naxçıvan Sement Zavodundan alır. Vaxtının çoxunu bu sənətə həsr edən usta qeyd edir ki, daşyonma ilə uşaqlıqdan məşğulam. Ancaq görürəm ki, hələ yaradılası çox əsər var. Nə qədər ki ürəyim döyünür, nə qədər ki bizim üçün yaradılan bu cür gözəl şərait var, işləməliyəm. İstəyirəm ki, gülüstana çevrilən Vətənimizin gözəlliyində mənim də payım olsun. Usta bu işi daşyonma sənəti ilə məşğul olmaq istəyənlərə öyrətmək arzusundadır.

Onun qədim formada düzəltdiyi çilçıraqlar, küçə fənərləri, müxtəlif heyvan fiqurları insanı biranlıq xəyal aləminə aparır. Görürük ki, yarılıb ocağa qoyulması mümkün olmayan “daş” kötüklər, daş parçaları, cansız metal da ustanın qabar barmaqlarından cana gəlib, sənət əsərlərinə çevrilə bilirlər. Xalqımızın illərboyu qoruyub saxladığı bu sənətlər cansızlara “can bəxş edən” sənətdir.

Bəli, doğrudan da, insan əli istəsə, daşa belə həyat bəxş edə bilər.

**✍ Ramiyyə ƏKBƏROVA**

***Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin tələbələri Türkiyə Cümhuriyyətinin müxtəlif universitetləri ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində qardaş ölkənin ali məktəblərində yay istehsalat təcrübəsi keçiblər.***

## Tələbələr Türkiyədəki təcrübələrini uğurla başa vurublar



Türkiyənin Ərzurum Atatürk, Trabzon Qaradəniz Texnik, Ərzincan Binəli Yıldırım, Kayseri Erciyes universitetlərinin kliniki xəstəxanalarındakı təcrübədə, ümumilikdə, 115 nəfərlik tələbə-müəllim heyəti iştirak edib. Tələbələr Cərrahiyyə, Pediatriya, Təcili Tibbi Yardım, Ginekologiya və Terapiya şöbələrində qrafik üzrə praktik məşğələlərdə, xəstə müayinə və müalicələrində iştirak ediblər. Universitetin Oftalmologiya, Qulaq-burun-boğaz, Dermatologiya ixtisasları üzrə rezident-həkimlər müayinə-müalicə proseslərində öz bilik və bacarıqlarını artırıblar. Tələbələr həkimlərin xəstəxanada keçdikləri mühazirələri dinləyiblər. Rezidentlər isə Kardiologiya ixtisası üzrə sərbəst xəstə müayinəsi aparıblar.

Qeyd edək ki, Naxçıvan Dövlət Universitetinin Qaradəniz Texnik Universiteti ilə bağladığı müqaviləyə əsasən tələbələr bu il ilk dəfə olaraq Trabzon şəhərində də təcrübə kursu keçiblər. Universitetlərarası razılaşmaya əsasən həmin universitetin Tibb, Əczaçılıq və Stomatologiya fakültələrinin professor-müəllim heyəti növbəti tədris ilində Naxçıvan Dövlət Universitetində dərs deyəcək.

Tələbələr təcrübə dövründə müxtəlif şəhərlərin mədəniyyət mərkəzləri və tarixi abidələri ilə tanış olmaq imkanı da əldə ediblər. Qardaş ölkədə xüsusi qayğı ilə əhatə olunan tələbələr Ərzincan valisi və Ərzincanın Sağlıq Müdiri ilə görüşüb. Onların keçdikləri istehsalat təcrübəsi Ərzincanın “Gündem 24” rəsmi qəzetində və televiziyasında işıqlandırılıb.

Məlumat üçün onu da bildirək ki, universitetin Baytarlıq ixtisasının tələbələri də hazırda Qars Qafqaz Universitetində təcrübə keçirlər.

Şübhəsiz ki, universitetlərarası qarşılıqlı əlaqə, təcrübə mübadiləsi tələbələrin gələcəkdə bilik və bacarıqlarının artırılmasına, yüksəkixtisaslı kadr kimi formalaşmalarına, muxtar respublikada professional tibbi kadr hazırlığına öz töhfəsini verəcək.

**Səadət ƏLİYEVA**

## İstirahət zamanı həyatımızı təhlükədə qoymayaq

### Bu məqam çimərliklərdə daha çox nəzərə alınmalıdır

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi yarandığı gündən əhalinin və ərazilərin fövqəladə hallardan qorunması istiqamətində apardığı işlərlə yanaşı, su hövzələrində və çimərliklərdə vətəndaşların təhlükəsizliyinin təmin olunması ilə bağlı zəruri tədbirlər həyata keçirir. Əsas məqsəd çimərliklərdən istifadə edən vətəndaşların istirahətlərinə və sağlamlıqlarına səbəb ola biləcək halların aradan qaldırılmasıdır.***





Qızmar yay günlərində muxtar respublikamızda da istirahət məqsədilə çimərliklərə və digər su hövzələrinə üz tutan vətəndaşların sayı nəzərəçarpacaq dərəcədə artıb. Lakin bir çox hallarda qadağan olunmuş qeyri-çimərlik ərazilərindən istifadəyə meyilli olan bəzi insanlar Günəş vannası qəbul etmək, eyni zamanda sərinləmək arzusunu həyatı bahasına ödəməli olurlar. Adətən, bədbəxt hadisələr vətəndaşların çimərliklərdə təhlükəsizlik, davranış qaydalarına əməl etməmələri, burada fəaliyyət göstərən xilasedicilərin müvafiq tələblərinə məhəl qoymamaları nəticəsində baş verir. Statistik təhlillərin nəticəsinə əsaslanıb deyə bilərik ki, bu hadisələr, əsasən, qadağan olunmuş, təhlükəli ərazilərdə çimənlərlə bağlıdır. Bu, bir daha onu göstərir ki, qadağanedici və xəbərdaredici məlumat lövhələrinə, sahil zolağı boyunca yerləşdirilən şarlara əhəmiyyət verməyən bəzi insanlar birmənalı şəkildə özlərini ölümün pəncəsinə atırlar. Ona görə də bədbəxt hadisələrin qarşısının alınması üçün xilasedicilərin olduğu ərazilərdə çimmək tövsiyə olunur. Digər tərəfdən, əvvəlki illərin təcrübəsinə nəzər salsaq, çimərliyə gələnlər arasında spirtli içkilərdən istifadə edərək suya baş vuranlara da rast gələ bilərik. Bu isə ölümlə üz-üzə qalmaq deməkdir.

Təbii ki, hər bir insanın istirahət hüququ vardır. Amma bu hüquqdan istifadə edərkən digərlərinin hüquqlarını pozmaq və yaxud bu sahədə cavabdehlik daşıyan qurumların işinə maneçilik törətmək olmaz. Təcrübə göstərir ki, çimərliklərdə istirahət edən insanların bir çoxu müvafiq tələblərə riayət etmədən istirahətlərini özlərinin dünyagörüşünə uyğun qurmağa çalışırlar. Belə hallar həmin ərazidə dincələnlərin də həyatı üçün təhlükə yaradır və əksər hallarda digər insanlar arasında narazılıqların yaranmasına səbəb olur.

Təəssüflər olsun ki, ötən illərin statistikasında su hövzələrində boğulanların əksəriyyətini yeniyetmə, gənclər və məktəbyaşlı uşaqlar təşkil edib. İlk növbədə, unutmaq olmaz ki, uşaq və yeniyetmələrin çimərliyə valideynsiz gəlmələri və ya suya nəzarətsiz daxil olmaları əsas təhlükə yaradan amillərdəndir. Eyni zamanda uşaqların çimərlik ərazisində qoyulan tələblərə, qaydalara əməl etməmələri həm onların, həm də digər istirahət edən vətəndaşların həyatını təhlükə qarşısında qoyur.

Çimərlikdə fəaliyyət göstərən xilasedicilərin xəbərdarlıqlarına məhəl qoymayan uşaqlar həm də onların fikirlərini yayındırmaqla gözlənilən təhlükəsizlik tədbirlərinin də keyfiyyətini aşağı salırlar. Təəssüflər olsun ki, bəzən uşaqları ilə çimərliyə gələn valideynlər sonradan öz istirahətlərinə aludə olub uşaqlarını unudurlar.

Bütün bunlar nəzərə alınaraq çimərlik mövsümündə insanların sularda təhlükəsiz istirahətinin təmin olunması məqsədilə Fövqəladə Hallar Nazirliyi vətəndaşlarımızı aşağıda qeyd olunan davranış qaydalarına riayət etməyə çağırır:

*- çimərlikdə uşaqları nəzarətsiz qoymayın;*

*- 13 yaşdan aşağı uşaqlara çimərlikdən yalnız valideynlərin və böyüklərin müşayiəti ilə istifadə hüququ verilir;*

*- nəzarətsiz ərazilərdə çimmək qadağandır;*

*- suda üzən nəqliyyat vasitələrinə yaxınlaşmayın;*

*- çimmə zonasının işarələnmiş sərhədlərini keçmək qadağandır;*

*- çimərlik ərazisini və suyun dibini zibilləmək olmaz;*

*- çimmə zonasında balıq ovlamaq qadağandır;*

*- sərxoş halda çimərliyə getmək və çimmək həyatınız üçün təhlükəlidir;*

*- skuterlərin sərxoş şəxslərə verilməsi qadağandır;*

*- qadağan edilmiş ərazilərə üzgü vasitələri ilə daxil olmaq təhlükəlidir;*

*- xilasetmə məntəqəsinin, xilasetmə texnika və avadanlığının, habelə xilasedicilərin olduğu yerlərdə çimmək lazımdır;*

*- xəbərdaredici nişanların, lövhələrin tələblərinə və xilasedicilərin çağırışlarına riayət edin;*

*- belə lövhələri sındırmaq və ya ondan digər məqsədlər üçün istifadə etmək qadağandır.*

Sadalanan bütün təhlükəsizlik qaydalarına əməl edən şəxslər istirahətini təhlükəsiz və rahat başa vura bilər. Unutmaq olmaz ki, istirahət hüququ heç kimə başqalarının həyatı üçün təhlükə yaratmağa icazə vermir.

Hər hansı bir təhlükə yarandıqda Fövqəladə Hallar Nazirliyinin ***“112”*** qaynar xəttinə zəng etməyi unutmayın!

**Emin QASIMOV**
***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin şöbə rəisi***

## Culfa “Əbrəqunus-Şərab” Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə!

30 avqust 2018-ci il tarixdə cəmiyyətin səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdə duran məsələlər:

*1. Cəmiyyətin 2017-ci il ərzində fəaliyyəti barədə idarə heyəti sədrinin hesabatı.*

*2. Digər məsələlər.*

Yığıncaq 30 avqust 2018-ci il tarixdə saat $11^{00}$-da Culfa rayon Əbrəqunus kəndində, cəmiyyətin inzibati binasında keçiriləcəkdir.

**ŞƏRQ qapısı**
**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Gülcamal Tahirova**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 1490. Sifariş № 519**